# Yaxşı çalışanda



**Ötən saylarımızda onun yüksək təşkilatçılıq bacarığından, işinə ürəkdən bağlı olduğundan, vəzifəsinə məsuliyyət və yaradıcılıqla yanaşdığından ətraflı bəhs etmişdik.**

Çəkilən zəhmətsə heç vaxt itmir. O bu və ya başqa şəkildə sahibinə üzağlığı, alınaçıqlığı bəxş edir, nüfuz qazandırır.

Bu mənada, Beyləqan Rayon Mərkəzləşdirilmiş Kitabxana Sisteminin direktoru Gültəkin xanım Məmmədovanın nazirliyimizin Fəxri Fərmanı ilə təltif olunması halal zəhmətə verilmiş layiqli qiymət kimi dəyərləndirilməlidir.

Belə ki, G.Məmmədova MKS direktoru təyin olunduğu vaxtdan Beyləqanda ədəbiyyatımızın təbliği, ədəbi-bədii gecələrin, şair və yazıçıların yubileylərinin keçirilməsi mütamadi xarakter daşıyır. Yerlərdə aparılan söhbətlər, maddi-texniki bazanın möhkəmləndirilməsi, rəngarəng tədbirlərin təşkili son nəticədə oxucuların kitaba marağını artırmış, kitabxanalara üz tutanların sayına müsbət təsir göstərmişdir. Beyləqanlı həmkarlarının iş təcrübəsindən başqa rayon kitabxanalrı da yararlanmağa çalışmalıdırlar...

Bu zamanın tələbidir! Dövlətimizin mədəniyyətə olan qayğı və diqqəti hər birimizi daha yaxşı çalışmağa, mədəni xidməti yüksəltmək üçün bütün səy və bacarığımızı səfərbər etməyə ruhlandırmalıdır...

**● Lalə HACIYEVA**

***Redaksiyamızdan: Yüksək qiymət münasibətilə Gültəkin xanımı çoxsaylı oxucularımız və yaradıcı kollektivimiz adından təbrik edir, ona ailə səadəti, möhkəm can sağlığı, nəcib işlərində yeni-yeni uğurlar diləyirik!***